**"AZƏRBAYCAN HAVA YOLLARI" QSC**
**MİLLİ AVİASİYA AKADEMİYASI**

*Əlyazması hüququnda*

**VÜQAR DAVİD OĞLU BAĞIRLI**

# AZƏRBAYCAN RESPUBLİKASINDA VƏ ABŞ-DA PREZİDENTLİK İNSTİTUTU (MÜQAYİSƏLİ-HÜQUQİ TƏDQİQAT)

**5607.01** – Konstitusiya hüququ;
bələdiyyə hüququ

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

Dissertasiya işi Azərbaycan Universitetində hazırlanmışdır.

*Elmi rəhbərlər:* **L.H. HÜSEYNOV**
hüquq elmləri doktoru

**C.Y. QARACAYEV**
hüquq elmləri namizədi

*Rəsmi opponentlər:* **Ə.İ. HÜSEYNOV**
hüquq üzrə elmlər doktoru

**S.X. MÜRŞÜDOVA**
hüquq üzrə fəlsəfə doktoru

*Aparıcı təşkilat:* Azərbaycan Milli Elmlər Akademiyasının
Fəlsəfə və Hüquq İnstitutu

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın müdafiəsi "25" oktyabr 2014-cü il saat "_______" - da "Azərbaycan Hava Yolları" QSC Milli Aviasiya Akademiyasının nəzdindəki FD 06.011 ixtisaslaşdırılmış dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, Binə qəsəbəsi, 25-ci km, Milli Aviasiya Akademiyası, 3-cü tədris korpusu, akt zalı.

Dissertasiya işi ilə Milli Aviasiya Akademiyasının Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat 22 sentyabr 2014-cü il tarixdə göndərilmişdir.

**FD 06.011 dissertasiya şurasının elmi katibi,**
**hüquq üzrə fəlsəfə doktoru, dosent** **F.T.Nağıyev**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Təqiqat mövzusunun aktuallığı.** XX əsrdə 80-ci illərin sonu 90-cı illərin əvvəlində bir çox ölkələrdə olduğu kimi, Azərbaycanda da baş verən demokratik dəyişikliklər, yalnız ictimai deyil, həm də dövlət orqanları sisteminin demokratik ideyalarına əsaslanan yeni təşkili məsələləri əhatə edirdi. Dövlət mexanizmində edilən ən vacib dəyişikliklərdən biri 1990-cı ildə təsis edilən prezidentlik institutu oldu.

Prezidentlik institutunun dünya tarixində 200 illik dövrünün olmasına baxmayaraq bu, Azərbaycan Respublikası üçün yeni bir tendensiya idi. Buna görə də Azərbaycan Respublikasının həmin dövrdə prezidentlik institutunun praktiki fəaliyyətinin həyata keçirilməsi və gerçəkləşməsi üçün nəzəri əsaslar işlənməmişdir. Bunun əsas səbəbləri heç də həmin dövrdə Azərbaycanda qüvvədə olan 1978-ci il Konstitusiyasının faktiki dinamikliliyi və ya 90-cı illərdə Azərbaycan Respublikası Prezidentinin hüquqi vəziyyətinə dair Konstitusiyaya dəfələrlə dəyişikliklərin edilməsi və yaxud da prezidentlik institutunun elmi cəhətdən lazımi qaydada tədqiqatının aparılmamasında olmamışdır.

Məlumdur ki, 1995-ci il Konstitusiyasına qədər qanunverici orqan prezidentin statusu və onun dövlətdə faktiki rolu ilə bağlı yekdil fikrə gələ bilmirdi. 12 noyabr 1995-ci il də ümumxalq səsverməsi – referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası dövlət orqanları sistemində prezidentin statusunu əvvəlkindən fərqlənən klassik formada təsbit etməklə dövlət başçısının hüquqi vəziyyətinin müəyyən edilməsi ilə bağlı məsələlər ətrafında əlavə elmi disskusiyalara zəmin yaratmış oldu. Bu həmçinin Azərbaycanda yaranmış prezidentlik institutunun digər dövlətlərin, xüsusi ilə də 200 ildən artıq dövrdə təkamül prosesi keçmiş ABŞ-ın prezidentlik institutu ilə müqayisəli təhlilini, həmçinin həmin ölkələrdə prezidentlik sahəsində mövcud təcrübənin öyrənilməsini zəruri etdi.

Baxmayaraq ki, Azərbaycan Respublikasında və ABŞ-da prezidentlik institutunun yaranması və inkişafı öz mili və tarixi dövlət quruculuğunun konstitusion-hüquqi münasibətlərinin hüquqi tənzimlənməsinin müasir dövrdəki xüsusiyyətlərinə görə bir-birindən fərqlənsə də, onlar ümumi oxşar xüsusiyyətlərə də malikdirlər. Qeyd edilən dövlət başçılarının statusunda oxşar cəhətlərin müəyyən edilməsi və onların müqayisəli təhlili tədqiqatın əsas obyeklərindən birini təşkil edir. Qeyd edilən hər iki dövlətin prezidentləri dövlət orqanları sistemində oxşar xüsusiyyətlərə malik olsada, onlar dövlət başçısı və icra hakimiyyətinin başçısı vəzifələrinidə özündə birdəşdirirlər. Azərbaycan Respublikası və ABŞ-ın prezidentlərin funksiyalarının və səlahiyyətlərinin müqayisə edilməsi hər iki ölkədə prezidentlik institutunun təyinatı ilə bağlı ümumiləşdirilmiş nəticələrə gəlməyə imkan verir.

Bununla belə Azərbaycan Respublikası və ABŞ Prezidentlərinin malik olduqları statusun dərindən öyrəlilməsi və müqayisəli hüquqi təhlili ilk növbədə elmi-praktiki əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidentinin konstitusion-hüquqi statusunun xüsusiyyətlərinin ABŞ Prezidentinin statusu ilə müqayisədə tədqiq edilməsi bu ölkələrdə dövlət başçılarının statusunun konstitusion-hüquqi tənzimlənməsində və məzmununda fərqli cəhətlərin aşkara çıxarılmasına imkan yaradır. Bu da öz növbəsində Azərbaycan Respublikasının qanunvericiliyində daha uğurlu təsbitini tapmış Prezidentin statusunun elementlərini müəyyən etməyə və qiymətləndirməyə imkan verir.

L.V. Boytsova və V.V.Boytsovanın "müxtəlif milli qanunvericilik elementlərinin kombinasiyası yeni, daha effektiv həlli yollarını təklif edə bilər"[1] haqlı olaraq qeyd etdiklərinə görə müqayisəli-hüquqi araşdırmanın nəticələrinə əsaslanaraq Azərbaycan Respublikası Prezidentitin konstitusion-hüquqi statusunu təkmilləşdirilməsinə imkan yaranır. Azərbaycan Respublikası və ABŞ prezidentlərinin hüquqi vəzifələrinin müqayisəsi həm də onların seçilmə qaydasının, səlahiyyətlərinin və məsuliyyətinin normativ-hüquqi keyfiyyəti haqqında nəticə çıxarmağa imkan verir.

**Mövzunun işlənmə dərəcəsi**. Prezidentlik institutu ilə bağlı problemlər bir çox müəllliflərin, onların arasında xüsusi diqqətə layiq olan Bunların arasında M.B.Ağayev[2], Ş.M.Əliyev[3], B.P.Yeliseyev[4], R.F.İvanov[5], D.İ.İlimskiy[6], T.Kronin[7], V.İ.Lafitskiy[8], V.İ.Radçenko[9], N.A.Saxarov[10], V.Q.Fyodorov[11] və başqalarının tədqiqat predmeti olmuşdur.

Çox az sayda rusiyalı və azərbaycanlı alimlər: Q.V.Dyoqtev[12], A.L.Juravlyov[13], A.Ş.Sultanov[14] və başqaları prezidentlik institutunun müqayisəli təhlili məsələləri ilə xüsusi məşğul olmuşlar. Prezidentlik institutunun təşkilinin və fəaliyyətinin elmi araşdırılması məsələlərinə Azərbaycan Respublikasında xüsusi diqqət yetirilirdi. Bununla yanaşı qeyd edilən məsələlər Azərbaycan Respublikasının Prezidentinin huquqi statusuna mühüm dəyişikliklər edən 2002-ci və 2009-cu il Konstitusiya referendumunun keçirilməsindən sonra praktiki olaraq nəzərdən keçirilməyib. Digər tərəfdən, Azərbaycan Respublikasında mövcud olan prezidentlik institutu ABŞ-da olan prezidentlik institutu ilə müqayisəli şəkildə araşdırma predmeti olmamışdır. Belə bir tədqiqatın vacibliyi Azərbaycanda dövlət mexanizminin təşkilinin və fəaliyyətinin təkmilləşdirilməsi məqsədlərindən irəli gəlir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya tədqiqatində məqsəd Azərbaycan Respublikasında və ABŞ-da prezidentlik institutunun kompleks müqayisəli-hüquqi tədqiqidir.

---

[1] Бойцова Л.В., Бойцова В.В. Будущее сравнительного права: возможности двадцать первого века // Юридический мир. 2002. № 4. с. 16-21
[2] Агаев М.Б. Институт Президента Азербайджанской Республики. Дис. ... канд. юрид. наук. М., 1994
[3] Əliyev Ş.M. Prezidentlik institutu. Bakı: Bakı Universiteti nəşriyyatı, 1994
[4] Елисеев Б.П. Институт Президента Российской Федерации. Автореф. дис. … канд. юрид. наук. М., 1992
[5] Иванов Р.Ф. Президентство в США. М.: Просвещение, 1991
[6] Илимский Д. Основы президентской власти. М.: Юрайт-Издат, 1997
[7] Cronin Th. The State of Presidency. Boston, 1980
[8] Лафитский В. И. Правовое регулирование президентских выборов в США. М.: АО «ЦентрЮрИнфо Р» 2004
[9] Радченко В.И. Президент в конституционном строе России. М.: Городец, 2000
[10] Сахаров Н.А. Институт президентства в современном мире. М.: Юрист, 1994
[11] Федоров В.Г. Как избирают Президента США. М.: Политиздат, 1980
[12] Дегтев Г.В. Конституционно-правовой статус Президентов Российской Федерации и США. М.: Юристь, 2003
[13] Журавлев А. Л., Султанов А. Ш. Сравнительный анализ правового статуса президентов Азербайджанской Республики и Российской Федерации. М.: ИНФРА·М-НОРМА, 1997
[14] Султанов А. Ш. Конституционно-правовой статус Президентов Азербайджанской Республики и Российской Федерации. (Опыт сравнительного исследования). Дис. ... канд. юрид. наук. М., 1997

Tədqiqatın məqsədi aşağıdakı məsələlərin qoyulmasında və həllində ifadə olunur:

1. Prezidentlik institutunun nəzəri-hüquqi aspektlərinin və hüquqi təbiətinin aşkara çıxarılması.
2. Azərbaycan Respublikasıda və ABŞ-da prezidentlik institutunun yaradılması prosesini, bu institutun formalaşmasına və inkişafına təsir edən amilləri təhlil etmək.
3. Azərbaycan Respublikasıda və ABŞ-da prezidentlərin seçilmə qaydasını, vəzifə səlahiyyətlərinə başlaması, seçki prosesində yaranan problem və çətinliklər, eyni zamanda onların həlli yollarını aşkara çıxarmaq.
4. Azərbaycan Respublikasıda və ABŞ-da prezidentin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi prosedurunu tədqiq etmək.
5. Azərbaycan Respublikasıda və ABŞ-da prezidentin qanunvericilik hakimiyyəti sferasındakı səlahiyyətini təhlil etmək.
6. Azərbaycan Respublikasıda və ABŞ-da prezidentinin icra hakimiyyəti sferasındakı səlahiyyətlərinin spesifikasını göstərmək.
7. Azərbaycan Respublikasıda və ABŞ-da prezidentlərinin məhkəmə hakimiyyəti sferasındakı səlahiyyətlərini göstərmək.
8. Azərbaycan Respublikasıda və ABŞ-da prezidentlərin milli təhlükəsizliyin təminatında, müdafiə və xarici siyasət sferalarındakı səlahiyyətləri tədqiq etmək.

**Dissertasiya tədqiqatının normativ bazası** 1999-cu il Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, 27 may 2003-cü il Azərbaycan Respublikasının Seçki Məcəlləsi, 1976-cı il Kuba Respublikasının Konstitusiyası, 1874-cü il İsveçrə Konfederasiyasının Konstitusiyası, 1787-ci il ABŞ Konstitusiyası, "Azərbaycan Respublikasının Prezidentinin andiçmə qaydası haqqında" Azərbaycan Respublikasının 16 iyun 1992-ci il Qanunu, "Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının 23 dekabr 2003-cü il Qanunu, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının 10 iyun

1997-ci il Qanunu, "Məhkəmə-Hüquq Şurası haqqında" 28 dekabr 2004-cü il Qanunu, "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının 4 fevral 1992-ci il Qanunu, "Milli fövqəladə vəziyyət haqqında" ABŞ-ın 14 sentyabr 1976-cı il Qanunu, "Milli təhlükəsizlik haqqında" ABŞ-ın 26 iyul 1947-ci il Qanunu, "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının 6 yanvar 1994-cü il Qanunu, "Müdafiə haqqında" Azərbaycan Respublikasının 26 noyabr 1993-cü il Qanunu, "Beynəlxalq müqavilələrinin bağlanması, icrası, denonsasiyası haqqında" Azərbaycan Respublikasının 13 iyun 1995-ci il Qanunu, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının 8 iyun 2001-ci Qanunu, "Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Azərbaycan Respublikasının 24 dekabr 2002-ci il Konstitusiya Qanunu, "Azərbaycan Respublikası Prezidentinin seçkiləri haqqında" Azərbaycan Respublikasının 9 iyun 1998-ci il Qanunu, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarıdan ibarətdir.

**Dissertasiya tədqiqatının empirik əsasını** ABŞ Ali Məhkəməsinin 18 iş materiallarının öyrənilməsi və ümumiləşdirilməsinin nəticələri təşkil etdi.

**Dissertasiyanın elmi yeniliyi ondan ibarətdir ki, bu tədqiqat işi** Azərbaycan Respublikasıda və ABŞ-da prezidentlik institutunun təşkilinin və fəaliyyətinin nəzəri və praktik problem və məsələləri, sistemli təhlilinin və müqayisəsinin aparıldığı kompleks elmi tədqiqatlardan biridi. Aparılmış tədqiqatın əsasında bir sıra **nəticə və təkliflər** formalaşmışdır. Bunlar arasında aşağıdakı müddəalar müdafiəyə çıxarаılır:

- Prezidentlik institutu prezidentin seçilməsi qaydası, vəzifə səlahiyyətlərinə başlama qaydasını (inaqurasiya), dövlət hakimiyyəti orqanları sistemində prezidentin səlahiyyətlərini müəyyən edən, eyni zamanda, səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi, vəzifədən kənarlaşdırma və əvəzlənməsi məsələlərini tənzim edir;

- Müxtəlif ölkələrdə prezidentlik institutunun tədqiqi zamanı bu kateqoriyaların istifadəsi mümkündür: "seçkili dövlət başçısı", "ali vəzifəli şəxs",

"siyasi vəzifə", "dövlət vəzifəsi", "dövlət hakimiyyəti orqanları sistemində arbitr", "icra hakimiyyətinin başçısı", "prezidensializm". Bu kateqoriyalara müraciət imkanı konkret dövlətdə mövcud olan hakimiyyət formasından birbaşa asılıdır;

- ABŞ-da prezidentlik vəzifəsinin tətbiq edilməsi digər ölkələrdə də bu institutun inkişafına əsas vermişdir. Hazırda prezidentlik bir çox Avropa, Asiya, Amerika, Afrika ölkələrinin siyasi sistemlərinin ayrılmaz elementidir. Bununla belə hər bir ölkə onun siyasi həyatında prezidentin oynayacağı rolu özü müəyyən edir;

- Azərbaycan Respublikasıda və ABŞ-da prezidentlik institutunun inkişafının ilkin mərhələlərinə icra hakimiyyətinin zəif olması xarakterikdir. Azərbaycan Respublikasıda icra hakimiyyətinin rolunun güclənməsi 1995-ci il Konstitusiyasının, ABŞ-da isə bu Konstitusiyaya dəyişikliklərin və "nəzərdə tutulan səlahiyyətlər" doktrinasının qəbul edilməsi ilə formalaşmışdır;

- Prezidentlik institutunun səmərəliliyinin yüksəldilməsi Prezidentin şəxsi keyfiyyətlərindən aslıdır. Ulu öndərimiz Heydər Əliyevin qətiyyəti, cəsarəti, işgüzarlığı, xalqa arxalanması və s. . bu kimi müsbət şəxsi keyfiyyətləri nümayiş etdirməklə Azərbaycan Respublikasında prezidentlik institutunun yaranmasında və inkişafında mühüm rol oynamışdır;

- Azərbaycan Respublikasıda və ABŞ-da prezidentlərin seçilmə qaydalarının təhlili müvafiq qanunvericilikdə təkcə ümumi cəhətləri yox, həm də əsas fərqləri aşkarlamağa imkan verir. Azərbaycan Respublikasıda prezident seçkiləri haqqında qanunvericiliyin məcəllələşdirilməsi səviyyəsi daha yüksəkdir. Seçkilərin təşkili və aparılması haqqında ümumfederal qanunun olmadığı üçün ABŞ-da seçkilər ştatlarin qanunvericiliyinə uyğun qaydada aparılır. Məhkəmə presidentləri və korporativ xarakterli normalar ("partiya qaydaları") müəyyən əhəmiyyətə malikdir. Azərbaycan Respublikasıda prezidentliyə namizədlərə formal, qanunveriliklə nəzərdə tutulan tələblər daha çoxdur, lakin ABŞ-da siyasi təcrübə nəticəsində işlənib hazırlanmış faktiki tələblər mühüm əhəmiyyətə malikdir. Azərbaycan Respublikasıda prezidentliyə

namizədlərin irəli sürülməsi qaydası daha demokratikdir. Çünki namizəd kimi irəli sürülmək hüququna təkcə siyasi partiyalar deyil, həm də seçicilər malikdir. ABŞ-da prezident seçkilərinin mühüm xüsusiyyəti digər prezidentli respublikalarla yanaşı Azərbaycan Respublikası üçün də səciyyəvi olmayan dövlət başçısının dolayı yolla seçilməsi təşkil edir;

- Prezident öz səlahiyyətlərini həyata keçirdiyi müddət ərzində siyasi partiyaya üzvlüyünü dayandırmaq hüququna malikdir;

- Azərbaycan Respublikasıda və ABŞ-da konstitusiyalari ilə prezident səlahiyyətlərinin icrasının vaxtından əvvəl dayandırılması üçün eyni əsaslar nəzərdə tutulur. Azərbaycan Respublikasıda müvafiq prosedurların qanunvericiliklə tənzimlənməsi daha dəqiq və müfəssəl qaydada reqlamentləşdirilmişdir;

- ABŞ Prezidentlik İnstitutunda tətbiq edilən mülki məsuliyyət barədə hüquq norması Azərbaycan Respublikasının Prezidentlik İnstitutuna da tətbiq edilməsi;

- ABŞ Prezidentinin əfv etmə səlahiyyəti ilə Azərbaycan Respublikasının Prezidentinin bu sahədə səlahiyyətləri ilə müqayisə edərək, ABŞ Konstitusiyasının II maddəsinin 2-ci bölməsində və Azərbaycan Respublikasının Konstitusiyasının 109-cü maddəsinin 22-ci bəndinə müvafiq olaraq Azərbaycan Respublikasının Prezidentinin məhkəmə hökümünün icrasını təxirə salmaq hüququnun verilməsini Azərbaycan Respublikasının Konstitusiyanın 109-cu maddəsinə əlavə edilsin;

- Azərbaycan Respublikasıda və ABŞ-da prezidentin konstitusion səlahiyyətlərinin tədqiqi, Azərbaycan Respublikasıda bu məsələnin konstitusion və qanunvericilik qaydasında tənzimlənməsinin daha yüksək səviyyədə olmasını göstərir. ABŞ-da bu çatışmazlıq prezidentin "nəzərdə tutulan səlahiyyətlər" doktrinası və Ali Məhkəmə tərəfindən konstitusiyanin təfsiri vasitəsi ilə aradan qaldırılmış olur;

- Sözü gedən ölkələrdə prezidentin səlahiyyətləri bir sıra parametrlərinə görə oxşardır. Bununla yanaşı qanunvericilik prosesində və icra hakimiyyəti sferasında Azərbaycan Respublikasının Prezidentinin rolu daha fəaldır, eyni

zamanda ABŞ Prezidenti xarici siyasət və müdafiə sahəsində daha böyük səlahiyyətlərə malikdir;

- Fərmanlarla sərəncamlar arasında yalnız şərti fərqləndirməni və formalaşmış təcrübə əsasında səlahiyyətlərinin yekcins olduğundan onların içərsində növ müxtəlifliklərini fərqləndirməni çətin olduğunu nəzərə alıb Azərbaycan Respublikasının Konstitusiyanın qanunvericilik sisteminə daxil olan aktların göstərildiyi 148-ci maddəsinin 1-ci hissəsinin 4-cü bəndində sərəncamların da əlavə olunması məqsədəuyğun hesab edilsin;

- Qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Milli Məclisinə təqdim etdiyi qanun layihəsini iki ay ərzində səsə qoyulur və bu qanun layihəsini Azərbaycan Respublikasının Prezidenti təcili elan edibsə, bu müddət 20 gün təşkil edir. Azərbaycan Respublikasının Konstitusiyanın 96-cı maddəsinin 5-ci hissəsinə əlavə edilməsi məqsədəuyğun sayılır: "Azərbaycan Respublikası Prezidentinin bu tələbinin Azərbaycan Respublikası Milli Məclis tərəfindən icra olunmadıqda Milli Məclis Konstitusiya ilə nəzərdə tutulmuş qaydada yeni qanunun qəbuluna qədər qanun qüvvəli fərman vermək hüququna malikdir";

**Tədqiqatın obyekti** Azərbaycan Respublikasıda və ABŞ-da prezidentlik institutunun formalaşması və fəaliyyəti zamanı yaranan hüquqi münasibətlərdir.

**Tədqiqatın predmeti** Azərbaycan Respublikasıda və ABŞ-da prezidentlik institutunun təşəkkülünün və inkişafının nəzəri və praktiki məsələləridir, bu ölkələrin prezidentlərinin səlahiyyətləri, dövlət mexanizminin optimal fəaliyyətinin təmin edilməsində onların rolunu təşkil edir.

**Tədqiqatının metodoloji əsasını** qarşıda qoyulmuş məqsədlərə-çatmaq üçün Azərbaycan Respublikasıda və ABŞ-da prezidentlik institutunun kompleksli müqayisəli-hüquqi tədqiqini aparmağa imkan verən həm ümumelmi (dialektik-maddi, sistem), həm də xüsusi (hüquqi-komperativ, normativ-məntiqi, tarixi-hüquqi) tədqiqat metodları təşkil edir.

**Tədqiqatın praktiki əhəmiyyəti**. Dissertasiyanın materialları prezidentlik institutunun təşkilinin və fəaliyyətinin nəzəriyyəsinin və təcrübəsinini sonrakı

tədqiqi üçün Azərbaycan Respublikasının Prezidentinin hüquqi statusunun təkmilləşməsi üçün əsasdır. Dissertantın əldə etdiyi nəticələr " Azərbaycan Respublikasının konstitusiya hüququ", "Xarici ölkələrin konstitusiya hüququ", " Azərbaycan Respublikasının dövlətin və hüququn əsasları", "Beynəlxalq hüquq" kimi fənlərin və xüsusi fənlərin tədrisində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya tədqiqatının nəticələri, təklifləri və tövsiyələri müəllifin səkkiz publikasiyasında əks olunmuş, konfraslarda, "Azərbaycan" Universitetinin beynəlxalq və konstitusiya hüququ kafedrasının iclaslarında məruzə və müzakirə olunmuşdur. Tədqiqatın nəticələrinin aprobasiyası "Azərbaycan" Universitetinin hüquq fakültəsinin tələbələri ilə konstitusiya hüququ dərsləri zamanı müəllif tərəfindən aparılmışdır.

**Dissertasiyanın strukturu** tədqiqatın məntiqinə uyğundur və onun məqsəd və vəzifələri ilə müəyyən edilir. Dissertasiya işi girişdən, səkkiz paraqrafı daxil edən üç fəsildən, nəticədən, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Giriş hissədə** mövzunun aktuallığı əsaslandırılır, onun işlənmə səviyyəsi göstərilir, dissertasiya tədqiqatının məqsəd və vəzifələri, onun metodoloji əsası, elmi yeniliyi və praktik əhəmiyyəti müəyyən edilir.

**Birinci fəsildə** - Prezidentlik institutunun əsası və Azərbaycan Respublikasıda və ABŞ-da təşəkkül tapması – bu anlayış açıqlanır, onun tarixi təkamülü, prezidentlik institutunun nəzəri-hüquqi aspektləri və onun hüquqi təbiəti göstərilir, həmçinin Azərbaycan Respublikasıda və ABŞ-da təşəkkül tapması nəzərdən keçirilir.

Prezidentlik institutunun tədqiqi zamanı ilk növbədə onu nəzərə almaq lazımdır ki, prezident idarəçilik formasından asılı olmayaraq dövlət başçısıdır. Dövlət başçısı – dövlət orqanları sistemində yüksək mövqe tutan, daxildə və

xarici siyasi münasibətlərdə dövlətin ali təmsilçisi, ölkə əhalisinin birliyinin simvolu olan ali vəzifəli şəxsdir (dövlət orqanıdır). Müxtəlif ölkələrin konstitusion təcrübəsi dövlət başçısının iki hüquqi formasını fərqləndirməyə imkan verir: fərdi və kollegial. Birincisi tarixən daha əvvəl formalaşmış, hələ də üstünlük təşkil edir və idarıçilik formaslndan asılı olaraq iki yarım növə bölünür: monarx və prezidentdir.

Ilk dəfə ABŞ-da yaranan prezidentlik institutu hal-hazırda dövlət hakimiyyətinin ən geniş yayılmış institutlarına aid edilir. Prezidentlik institutu prezidentin seçilmə qaydasını və onun vəzifəyə başlamasını (inaqurasiyasını), dövlət hakimiyyəti orqanları sistemində onun yerini müəyyən edən səlahiyyətləri, həmçinin səlahiyyətlərinin vaxtından əvvəl xitam verilməsini, onun əvəz edilməsini və vəzifədən kənarlaşdırılmasını tənzim edən konstitutsion-hüquqi normalar sistemidir.

Müxtəlif ölkələrdə prezidentlik institutunun tədqiqi zamanı bu kateqoriyaların istifadəsi mümkündür: "seçkili dövlət başçısı", "ali vəzifəli şəxs", "siyasi vəzifə", "dövlət vəzifəsi". "dövlət hakimiyyəti orqanları sistemində arbitr", "icra hakimiyyəti başçısı", "prezidensializm". Bu kateqoriyalarıyalara müraciət imkanı konkret dövlətdə hakimiyyət formasəndan birbaşa asılıdır.

Prezidentlik institutu onun müasir anlamında ilk dəfə 1787-ci ildə ABŞ konstitusiyası ilə müəyyən edilmişdir. ABŞ-da onun təşəkkül tapması güclü mərkəzi hakimiyyət tərəfdarları və əleyhidarları arasında kəskin tarixi siyasi münasibətlər şəratində baş vermişdi.

ABŞ-da prezidentlik institutu bir neçə təkamül mərhələsindən keçmişdir. Birinci mərhələ Corc Vaçinqtonun prezidentliyindən 1929-1932-ci iqtisadi böhranın sonunadək olan 140 illik müddəti əhalə edir. İkinci mərhələ Franklin Ruzveltin prezidentlik dövründən başlayaraq bugünə qədər davam edir. Birinci mərhələ üçün icra hakimiyyətnin nisbi zəifliyi və qanunverici hakimiyyətin üstünlüyü səciyyəvidir. Bununla belə bu dövrdə elə məqamlar olmuşdur ki, konqreslə münasibətlərdə icra hakimiyyətinin güclənməsi müşahidə edilmişdir. Söhbət Endru Cekson, Abram Linkoln və Teodor Ruzveltin prezidentliyindən

gedir. Konstitusiyanın qəbulundan sonrakı ilk illərdə təcrübə göstərdi ki, hakimiyyət orqanları sisteminin konstitusion "tənzimlənməsində" çatışmamazlıqlar mövcuddur. Bu boşluğu "nəzərdə tutulan səlahiyyətlər doktrinası" doldurmalı idi.

Qısa bir müddətdə mövcud olmasına baxmayaraq Azərbaycan Respublikasıda prezidenlik öz inkişafında bir neçə mərhələdən keçmişdir. Onun yaranması biləvasitə SSRİ-də prezidentliyin institut kimi formalaşması ilə bağlıdır. İlk mərhələ 18 may 1990-cı ildə Prezident vəzifəsinin yaradılması məqamından və "Konstitutsiyaya (Azərbaycan SSR-nin Əsas qanununa) dəyişikliklər və əlavələr haqqında" qanunun qəbul edilmısindən, "Nazirlər Kabinetinin təsis edilməsi və konstitusiyanın (Azərbaycan Respublikasnın Əsas qanununun) 122-ci maddəsinə dəyişikliklərin edilməsi haqqında" qanunun qəbul edilməsinədək olan müddəti əhatə edir. Bu dövr xalq deputatları şurasının tam hakimiyyəti şəraitində prezidenlik institutunun bərqarar edilməsi, dövlət başçısı (prezident) və hökumət başçısı (Nazirlər Sovetinin sədri) vəzifələrinin ayrılması, hökumətin (Nazirlər Sovetinin) xüsusi statusu ilə və onun Ali Məclis və respublikanın prezidenti ilə müasibətləri səciyyələnir. Bu konstruksiyanın mənfi təzahürləri ondan ibarət idi ki, prezidentin ölkədə yaranan arzuedilməz vəziyyətə "birbaşa" təsir etmə imkanın olmaması, yalnız hökumətə müəyyən nəzarət və onun fəaliyyətinə hüquqi düzəlişlərin edilməsi ilə məhdudlaşırdı. Digər bir mənfi cəhət ondan ibarət idi ki, hökumət onun sədri də başda olmaqla Ali Məclisə müraciət etməklə prezidentə qarşı müxalif mövqedən çıxış edə bilərdi. Dövlət və hökumət başçılarının (ilk növbədə onun sədri) fərqli səlahiyyətlərə malik olması, Nazirlər Sovetinin Ali Məclis qarşısında cavabdeh olması və hökumətə aid olan kadr və digər məsələlər barədə Ali Məclisin son qərar hüququna malik olması Nazirlər Sovetinə Ali Məclis və Prezident arasında tarazlığını saxlamaq imkanını yarada bilərdi. "Nazirlər Kabinetinin təsis edilməsi və Konstitusiyanın (Azərbaycan Respublikasının Əsas qanununun) 122-ci maddəsinə dəyişikliklərin edilməsi haqqında" və 5 mart 1991-ci il tarixli "Dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi ilə bağlı

Konstitutisyaya (Azərbaycan Respublikasının Əsas qanununa) əlavə və dəyişikliklər haqqında" qanunların qəbulunun məqsədi yuxarıda göstərilən çatışmazlıqları aradan qaldırılması idi. Beləliklə konstitusion səviyyədə ali icra hakimiyyəti birləşdirilmişdir. Respublika başçısı statusunu saxlayaraq prezident Azərbaycan Respublikasıda ali icra hakimiyyətini həyata keçirən orqan elan edilirdi. Prezidentin üzərinə Nazirlər Kabinetinin fəaliyyətinə rəhbərliyin həyata keçirilməsi vəzifəsi qoyulmuşdu. Bundan sonra icra hakimiyyətinin konsolidasiya prosesi inkişaf etməyə başladı.

Prezidentin statusnuna 26 noyabr 1993-cü il tarixli "Konstitutsiyaya (Azərbaycan Respublikasının Əsas qanununa) dəyişikliklərin edilməsi haqqında" Qanunda ciddi dəyişikliklərə səbəb olaraq yarıprezidentli respublikaya keçidi başa çatdırmış oldu və 1995-ci il Azərbaycan Respublikasının Konstitusiyasında milli dövlətçilik maraqlarına daha çox cavab verən prezidentli idarəçilik formasına keçilməsi üçün zəmin yaratdı. Xarici dövlətlərin təcrübəsi prezidentli prepublikanın effektiv olmasını göstərir. Onun üstünlürləri sırasına bunlar aid edilir: onun bütövlüyü – icra hakimiyyətinin elemntlərini həm üfüqi, həm də şaquli əsasda birləşdirə bilməsi; qərarların qəbul edilməsi üçün vacib olan məlumatların toplanmasında və işlənmısindəki operativlik; qəbul edilən qərarların hakimiyyət strukturları üzrə keçməsinin yüksək sürəti; prezident tərəfindən qəbul edilmiş qərarların efektivliyi və nəticələrinə görə məsuliyyətin fərdiləşdirilməsi. Prezidentlik institutunun inkişafının üçüncü mərhələsinin fərqli cəhəti onun dinamizmi və daimi təkmilləşməsidir.

**İşin ikinci fəslində** – "Azərbaycan Respublikası və ABŞ prezidentlərinin seçilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi" – Azərbaycan Respublikasıda və ABŞ-da prezidentlərin seçilmə qaydasının və vəzifə səlahiyyətlərinə başlamasının, həmçinin səlahiyyətlərinin vaxtından əvvəl xitam verilməsinin müqayisəli təhlili aparılır.

Dövlət başçısının seçilməsi qaydası ölkədə seçki sisteminin demoktarikliyinin, bütövlükdə demokratiyanın səviyyəsini əhəmiyyətli dərəcədə

səciyyələndirir. Prezident seçkiləri siyasi aspektdə böyük əhəmiyyətə malikdir. Azərbaycan Respublikasıda və ABŞ-da prezidentin seçilmə qaydasının təhlili bu dövlətlərin müvafiq qanunvericiliyində həm ümumi cəhətləri, həm də əsaslı fərqləri aşkarlamağa imkan verir.

Azərbaycan Respublikasıda prezident seçkiləri haqqında qanunvericiliyin məcəlləşdirilməsi daha yüksək səviyyədədir. Seçki qanunvericiliyi əsasən iki sənəddə öz əksini tapmışdı: Konstitusiya və Seçki Məcəlləsi. Seçkilərin təşkili və keçirillməsi haqqında ümumfederal qanunun olmadığı ABŞ-da isə seçkilər ştatların qanunvericiliyinə uyğun keçirilir. Az sayda olan federal səviyyəli normaların sırasına bərabər seçki hüququnun təmin edilməsinə yönəlmiş ABŞ konstitutsiyasına edilən dəyişikliklər və ABŞ-ın Qanunlar Məcmuəsinin 42-ci titulunda birləşdirilən bir sıra federal qanunlar aid edilir. Məhkəmə presidentləri və ilkin seçkiləri nizamlayan korporativ xarakterli normalar (“partiya qaydaları”) müəyyən əhəmiyyətə malikdir. Prezidentliyə namizədlərə irəli sürülən tələblərin siyahısı isə müəyyən qədər üst-üstə düşür. Beləliklə hər iki dövlətdə yaş senzi eynidir və müəyyən bir dövr ərzində ölkə ərazisində olma nəzərdə tutulmuşdu. Bununla yanaşı, vətəndaşlıq senzi fərqli tərzdə özünü göstərir. Qanunvericiliklə nəzərdə tutulmuş formal tələblər Azərbaycan Respublikasıda daha çoxdur. Lakin ABŞ-da siyasi təcrübə nəticəsində formalaşmış faktiki tələblər böyük əhəmiyyətə malikdir. Prezidentin səlahiyyət müddətinin reqlamentləşməsi eynidir, lakin onların sayı fərqlidir. ABŞ prezidentliyinə namizədliyin irəli sürülməsi qaydası iki mərhələdən ibarətdir. Bu prosesdə həlledici rol Respublikaçı və Demokrat partiyalarına məxsusdur. Azərbaycan Respublikasıda isə namizədlərin irəli sürülməsi qaydası daha demokratikdir. Çünki namizəd kimi irəli sürülmək hüququ təkcə siyasi partiyalara deyil, seçicilərə də məxsusdur. Seçki hüququnun prinsipləri Azərbaycan Respublikasının Konstitusiasında təmin edilir və Seçki Məcəllsində inkişaf etdirilib. ABŞ konstitusiyası isə əksinə, bu məsələni çox fraqmentar tərzdə nizamlayır. ABŞ-da prezident seçkilərinin əhəmiyyətli xüsusiyyəti dövlət başçısının bilvasitə seçilməməsidir.

Azərbaycan Respublikasıda və ABŞ-da prezidentlik institunun vacib tərkib hissəsi dövlət başşının səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi haqqında normalar qrupudur. Göstərilən ölkələrdə konstitusion normalar prezidentin səlahiyyətlərinin icrasının vaxtından əvvəl xitam verilməsinin oxşar əsaslarını nəzərdə tutur: istefa, səhhəti ilə bağlı öz səlahiyyətlərini icra etmək qabiliyyətinin tamamilə itirilməsi, vəzifədən imtina etməsi.

İstefa ABŞ-da və Azərbaycan Respublikasıda Prezidentin səlahiyyətlərinin vaxtından əvvəl xitam verilməsinin könüllü əsaslarına aid edilir. Azərbaycan Respublikasının qanunvericiliyi bu sahədə daha dəqiq reqlamentasiyası ilə fərqlənir. Prezidentin öz səlahiyyətlərini icra etmək iqtidarında olmamasının təsdiqinin ABŞ modeli dövlət başçısının vəzifədən qanunsuz kənarlaşdırılması təhlükəsinin qarşısını almağı özündə ehtiva edir. Vitse prezidentin və icra departamentlərinin əsas vəzifəli şəxslərinin prezidentin səlahiyyətlərini icra edə bilmək iqtidarında olmaması haqqında qanunvericilik hakimiyyətinin nümayəndələrini xəbərdar etmək hüququndan, habelə mübahisəli situasiyaların Konqres tərəfindən həll edilməli olmasından irəli gəlir. Bundan başqa, bu prosedurlarda bu iki hakimiyyətin münasibətini tarazlaşdıra bilən məhkəmə hakimiyyətinin heç bir iştirakı nəzərdə tutulmayıb. ABŞ-dan fərqli olaraq Azərbaycan Respublikasının Prezidentinin öz səlahiyyətlərini icra edə bilməməsinin təsdiq edilməsi proseduru yüksək müəyyənlik səviyyəsi ilə xarakterizə olunur. Bu aşağıdakı kriteriya üzrə vəzifədən kənarlaşdırma məsələsinin qaldırılması üçün əsasın dəqiq göstərilməsi ilə bağlıdır: prezidentin səhhəti ilə bağlı öz vəzifəsini icra etmək qabiliyyətini tamamilə itirməsi. Bundan əlavə, bu prosedurda hakimiyyətlər arasında daha dəqiq bölgünün təmin edilməsi üçün həm qanunverici, həm də Konstitusiya məhkəməsi simasında məhkəmə hakimiyyəti də cəlb olunub.

Impiçmentin amerikan modelinin fərqləndirən cəhəti ondan ibarət idi ki, impiçment üçün konkret əsasların ilk dəfə ABŞ Konstitusiyasında təsbit olunması idi. Lakin bu əsaslar tam dəqiq və aydın şəkildə göstərlimməmişdir. ABŞ-da indiyədək “ağır cinayətlər və əməllər” kateriyasının, “dövlətə xəyanət”

kimi cinayət tərkibinin təfsiri zamanı mübahisələr yaranır. Konstitusiya hüquq doktrinasında belə bir fikir özünə yer alır ki, impiçment üçün əsaslar təkcə cinayətlərin dairəsi ilə məhdudlaşmır: elə bir vəziyyət ola bilər ki, impiçment cinayət tərkibi olmayan hərəkətlərə görə də başlana bilər. ABŞ prezidentinin məsuliyyətə cəlb edilməsi hər şeydən öncə parlament prosedurudur. Prezidentin impicmentə cəlb edilməsi prosesi Konqresdə keçirilir: aşağı palata ittihamçı, yuxarı palata isə məhkəmə qismində çıxış edir. Məhkəmə hakimiyyəti bu prosedurda faktiki olaraq iştirak etmir. Azərbaycan Respublikasıda Prezidentin kənarlaşdırılması prosedurunda ABŞ-dan fərqli olaraq həm qanunverici, həm də məhkəmə hakimiyyəti iştirak edir. Prosedur Ali Məhkəmənin qərarı əsasında Konstitusiya Məhkəməsinin ilə başlayır, məsələ isə Milli Məclis tərəfindən həll olunur. Azərbaycan Respublikasının Prezidentinin vaxtından əvvəl vəzifədən kənarlaşdırılması üçün əsaslar Konstitusiyada dəqiq göstərilmişdir: prezident ağır cinayət törətdikdə. Ağır cinayətin məzmunu Cinayət Məcəlləsinin 15-ci maddəsi ilə müəyyən edilir.

**Üçüncü fəsildə** – "Azərbaycan Respublikası və ABŞ prezidentlərinin səlahiyyətləri" – Azərbaycan Respublikası və ABŞ prezidentlərinin səlahiyyətlərinin qanunverici, icra və məhkəmə hakimiyyəti sahəsindəki, həmçinin milli təhlükəsizliyin, müdafiənin və xarici siyasətin təmin edilməsi ilə bağlı səlahiyyətləri tədqiq edilir.

Azərbaycan Respublikası və ABŞ prezidentlərinin səlahiyyətləri, öz dövlətlərinin və hökumətlərinin başçıları kimi onların statusunu nəzərə alınmaqla ən optimal formada aşağıdakı istiqamətlər üzrə müqayisələr aparmaq olar: qanunvericilik hakimiyyəti sahəsində, icra hakimiyyəti sahəsində, məhkəmə hakimiyyəti sahəsində, təhlükəsizlik, ölkənin müdafiəsi, xarici siyasət sahəsindəki səlahiyyətlər.

Prezidentin ən mühüm səlahiyyətlərindən biri parlamentlə münasibətdə qanunvericilik prosesində dövlət başçısının iştirakı ilə bağlıdır. Əgər yalnız konstitusion mətnləri rəhbər tutsaq o zaman qanuvericilik prosesində ABŞ Prezidentinin rolu və iştirakı daha azdır. O, Azərbaycan Respublikasının

Prezidentindən fərqli olaraq qanunvericilik təşəbbüsü hüququna malik deyil. Lakin ABŞ prezidenti tərəfindən irəli sürülən qanun layihələri Konqresə ona yaxın olan deputatlar tərəfindən təqdim olunur. Bundan başqa ABŞ-da parlamentin qanunvericilik fəaliyyətə vacib təsir vasitələrindən biri adətən hökumətin qanunverici proqramından ibarət olan prezidentin müraciətnaməsidir

Hər iki prezident veto hüququna malikdir. Lakin burada da fərqlər mövcuddur. ABŞ prezidenti daimi veto hüququna malik deyil, lakin Azərbaycan Respublikasının Prezidenti daha uzun bir müddət üçün – 56 gün müddətində öz etirazları ilə bərabər qanun layihəsini Milli Məclisə qaytara bilər. Bundan əlavə Azərbaycan Respublikasının Prezidenti Konstitusiya qanunları ilə bağlı mütləq veto hüququndan da istifadə edə bilər. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti veto hüququndan daha az istifadə edir ki, bu da Azərbaycan Respublikasıda prezidentlik institutunun nisbətən daha "gənc" olması ilə şərtlənir.

Azərbaycan Respublikası və ABŞ prezidentləri parlamentlərin fəaliyyətinə mühüm təsir göstərmək səlahiyyətinə malikdir: qanunverici orqanların növbədənkənar sesiyalarını çağırmaq hüququ. Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətləri bu barədə o qədər də geniş deyil. Lakin ABŞ prezidentindən fərqli olaraq Azərbaycan Respublikasının Prezidenti Milli Məclisə seçkiləri təyin etmək hüququna malikdir.

Prezidentin icra hakimiyyəti sahəsindəki səlahiyyətlərinin həcmi ölkədə dövlət hakimiyyətinin təşkili formasından – idarəçilik formasından birbaşa asılıdır. Nəzərə alsaq ki, Azərbaycan Respublikası və ABŞ prezidentli respublikalarına aiddir bu dövlətlərin prezidentlərinin icra hakimiyyəti sahəsindəki səlahiyyətləri bir çox parametrlər üzrə oxşardır. Bununla yanaşı mühüm fərqlər də mövcuddur və onlar daha çox ABŞ-da hökumətin daimi fəaliyyət göstərən konstitusion orqan kimi mövcud olmaması ilə bağlıdır.

ABŞ-da Kabinet məşvərətçi orqandır və prezident tərəfindən formalaşdırılan kollegial orqan deyil. Buna görə də o aktlar vermir. Prezident isə

onun üzvlərinin məsləhətlərinə əməl etməyə də bilər. Azərbaycan Respublikasıda isə əksinə, Nazirlər Kabinetinin statusunun əsasları Konstitusiyanın 114-cü maddəsində təsbit edilmişdir. Göstərilən orqan icra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədi ilə prezident tərəfindən yaradılır, pezidentin yuxarı icra orqanıdır, konstitusion səlahiyyətlərə malik olan və hüquqi aktlar verən kollegial orqandır.

Azərbaycan Respublikasının Prezidenti Nazirlər Kabinetinin formalaşması üzrə geniş səlahiyyətlərə malikdir. Əsas qanunun 118-ci maddəsinə görə o Milli Məclisin razılığı ilə Baş Naziri vəzifəyə təyin edir. Hökumətin digər bütün üzvlərini prezident özü birbaşa təyin edir. Prezidentin Baş Nazir də daxil olmaqla hökumət üzvlərini vəzifədən azad etmək, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin istefası haqqında qərar qəbul etmək səlahiyyəti vardır.

ABŞ-da nazirlərin və icra hakimiyyətinin digər vəzifəli şəxslərinin prezident tərəfindən təyin edilməsi Senatın "məsləhəti və razılığı"ndan keçir. Bununla belə bir çox namizədlər Senatda hakimiyyət fəaliyyətinin müvafiq sahəsini "idarə edən" komitələrdə ətraflı dinləmələr keçirilir. Bununla yanaşı ABŞ prezidenti iki halda vəzifəli şəxslərin təyin edilməsində müstəqil təyinetmə hüququna malikdir: əgər bu hüquq ona qanun tərəfindən birbaşa verilmişsə və əgər vakansiya konqresin sesiyalararası dövründə yaranırsa (ən yaxın müddətdə olan sesiyanın bitməsinədək olan müddətdə). ABŞ Konstitutusiyası prezidentin Senatın razılğı ilə təyin etdiyi vəzifəli şəxslərin vəzifədən azad etmə hüququna malik olması haqqında sualı cavablandırmır. Təcrübədə vəzifədən azad etmə dövlət başçısı tərəfindən təkbaşına həyata keçirilir, baxmayaraq ki, bu məsələ bir neçə dəfə Konqres tərəfindən narazılığa səbəb olmuşdur.

Dövlətlərin əksəriyyətinə məhkəmə korpusunun müxtəlif səviyyələrinin formalaşmasında dövlət başçısının fəal rolu, həmçinin əfv etmə ilə bağlı dövlət başçısının səlahiyyətləri səciyyəvidir. Dövlət başçılarının hüquqi statusunun göstərilən aspektləri eyni dərəcədə Azərbaycan Respublikası və ABŞ prezidentlərinə də aiddir. Hər iki prezident hakim vəzifəsinə təyinat haqqında

təqdimatlar irəli sürmək hüququna malikdir – bu Azərbaycan Respublikasıda Konstitusiya məhkəməsinin, Ali Məhkəmənin və Apelyasiya Məhkəmələrinin, ABŞ-da isə Ali Məhkəmə və digər federal (dairə və federal) məhkəmənin hakimlərini əhatə edir. Bundan əlavə, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının digər məhkəmələrinin hakimlərini də təyin edir.

Əfv etmək hüququ idarəçilik formalarından asılı olmayaraq ənənə olaraq dövlət başçısının səlahiyyətlərinə aid edilir. ABŞ prezidentinin bu məsəslədə səlahiyyətləri amnistiya vermək hüququna malik olmayan Azərbaycan Respublikasının Prezidentindən daha genişdir. Digər tərəfdən Azərbaycan Respublikasıda əfv etmə mexanizminin qanunvericiliklə tənzimlənməsi səviyyəsi daha yüksəkdir. ABŞ-da isə *Ex Parte Garland*[15] işində Ali Məhkəmə qeyd etdi ki, prezidentin əfv etmə aktları qanunvericilik nəzarətinin obyekti ola bilməz. Bununla belə ABŞ Konstitutsiyası prezident tərəfindən əfv etmənin çərçivələrini müəyyən edir. Birincisi, əfv etmə impiçmentlə bağlı olan işlərdə yol verilmir, ikincisi, əfv etmə ABŞ-a qarşı, yəni onun subyektlərinə qarşı olan cinayətlərlə bağlı həyata keçirilə bilməz.

Milli təhlükəsizlik, müdafiə, xarici siyasət məsələləri Azərbaycan Respublikası və ABŞ prezidentlərinin fəaliyyətində vacib və bir-biri ilə bağlı olan istiqamətlərdir. Azərbaycan Respublikasının Konstitusiyasının 8-ci və 9-cu maddəsi müdafiənin və milli təhlükəsizliyin təmin edilməsi sahəsində Azərbaycan Respublikasının dövlət başçısısının səlahiyyətlərinin əhəmiyyətini və həcmini müəyyən edir.

Azərbaycan Respublikasıda fövqəladə vəziyyətin tətbiq edilməsi qaydası da Konstitusiya ilə tənzimlənir. ABŞ-da isə bu məsələ "Milli Fövqəladə vəziyyət haqqında" qanunla tənzim edilir. Fövqəladə rejimin bir sıra məsələləri ABŞ prezidentinin aktları ilə tənzim edilir. Bütün hallarda məqsəd prezidentlə Konqres arasında qarşılıqlı təmas və qarşılıqlı nəzarətin təmin edilməsidir. Xüsusən ABŞ prezidenti fövqəladə vəziyyət zamanı dövlətin xərcləri haqqında hesabatları qanunverici hakimiyyət orqanına təqdim etməyə borcludur. Bu

[15] Ex Parte Garland, 71 U.S. (4 Wall.) 333 (1866)

fövqəladə vəziyyətin müddətinin bitməsindən sonra 90 təqvim günündən gec olmayaraq təqdim olunmalıdır. Azərbaycan Respublikasının qanunvericiliyində belə bir müddəalar yoxdur. Lakin "Fövqəladə vəziyyət" haqqında qanunun 20-ci maddəsinə müvafiq olaraq fövqəladə vəziyyətin tətbiq olunmasına gətirib çıxaran şəraitin və nəticələrin aradan qaldırılması məqsədi ilə həyata keçirilən tədbirlərin maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına aparılır, bu da Konstitusiyanın 95-cı maddəsinin 5-ci bəndini nəzərə alsaq Milli Məclisin fövqəladə vəziyyət zamanı vəsaitlərin xərclənməsinə nəzarət imkanını nəzərdə tutur.

ABŞ-da fövqəlada vəziyyət şəraitində məşvərət funksiyalarını ABŞ prezidenti yanında fəaliyyət göstərən Milli Təhlükəsizlik Şurası həyata keçirir. Azərbaycan Respublikasıda oxşar funksiyalar Konstitusiyanın 109-cu maddəsinin 27-ci bəndinə müvafiq olaraq prezident tərəfindən yaradılan Təhlükəsizlik Şurasının üzərinə düşür.

Azərbaycan Respublikası və ABŞ prezidentlərinin müdafiə sahəsindəki səlahiyyətləri genişdir. Hər iki prezident konstitusiya normalarına müvafiq olaraq silahlı qüvvələrin Ali Baş Komandanlarıdır. Hərbi sahədə ABŞ prezidentinin fəaliyyəti ölkə büdcəsini qəbul etməsi ilə silahlı qüvvələrin maliyyələşdirilməsi səviyyəsini müəyyən edə bilən Konqresin Konstitusiya səlahiyyətləri ilə məhdudlaşır. Bundan başqa Konqres müharibə elan etmək hüququna malikdir (ABŞ Konstitusiyasının 1-ci maddısinin 8-ci bölməsi). Lakin beynəlxalq münasibətlərdə prezidentin aparıcı rola malik olması və qoşunlara əmr etmək imkanı Baş Komandanın hüququ olduğundan qanunverici orqanın razılığı olmadan da hərbi əməliyyatların başlanmasına gətirib çıxara bilər. Azərbaycan Respublikasıda prezident həmçinin "hərbi vəziyyət" haqqında, "müdafiə haqqında" qanunlarda inkişaf etdirilmiş geniş Konstitusion hərbi səlahiyyətlərə malikdir.

Hər iki prezident xarici siyasət sahəsində də mühüm səlahiyyətlərə malikdir. Yalnız konstitusiya normaları baxımdan ABŞ prezidentinin bu barədə səlahiyyətləri kifayət qədər məhduddur. Təcrübədə isə ABŞ prezidenti xarici

siyasətlə bağlı işlərdə hegemonluğa malikdir. Ümumilikdə ABŞ Konstitutsiyasında prezident və qanunvericilik hakimiyyəti arasında xarici siyasət səlahiyyətlərinin bölüşdürülməsi qaydası dəqiq şəkildə müəyyən edilməmişdir. Buna görə də xarici siyasət sahəsində ABŞ prezidentinin səlahiyyətləri bir neçə dəfə Konqres tərəfindən mübahisə obyektinə çevrilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyası dövlət başçısının xarici siyasət səlahiyyətlərini Əsas qanunun 8-ci maddəsinin normaları ilə müəyyən edərək daha dəqiq şəkildə müəyyənləşdirir. Qeyd edilən sahədə Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətləri şərti olaraq diplomatik nümayəndəliklərin formalaşdırılması, beynəlxalq müqavilələrin bağlanmsında iştirakı və xarici dövlətlərin diplomatik nümayındələrin etimadnamə və övdətnamələri qəbul etmək səlahiyyətlərinə bölünür. Azərbaycan Respublikası və ABŞ prezidentlərinin Konstitusion sılahiyyətlərinin tədqiqi Azərbaycan Respublikasıda bu məsələnin Konstitusion və qanunvericilik qaydasında tənzim edilməsinin daha yüksək dərəcəsinə dəlalət edir. ABŞ-da bu çatışmazlıq prezidentin “nəzərdə tutulan səlahiyyətlər” doktrinası və Ali məhkəmə tərəfindən konstitusiyanın məhkəmə təfsiri vasitəsi ilə aradan qaldırılır.

Dissertasiya işinin **nəticəsində** bir sıra əsas elmi nəticələr və təcrübi cəhətdən əməhiyyətli təkliflər irəli sürülür. Onların bir qismi bu avtoreferatda öz əksini tapmışdır.

# DİSSERTASİYANIN ƏSAS MÜDDƏALARI AŞAĞIDAKI MƏQALƏLƏRDƏ DƏRC OLUNMUŞDUR:


1. «К вопросу о понятии института президентства» // Казахстанская криминалистическая ассоциация. Предупреждение преступности. Юридический журнал. №1(9) 2005, с. 36-39
2. «К вопросу о форме правления в Азербайджанской Республике» // Azərbaycan Hüquq Jurnalı. №1 / 2006, s. 21-25
3. «Становление института президентства в США и Азербайджанской Республике» // Keçid dövründə Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. EMM. 15-ci buraxılış. Bakı-2006, s. 66-71
4. «Сравнительно-правовой анализ досрочного прекращения полномочий президентов Азербайджанской Республики и США» // Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri. №19, Bakı 2006, s. 66-76
5. «Голосование, определение его результатов и процедура инаугурации президентов Азербайджанской Республики и США» // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. №1, Bakı 2007, s. 289-292
6. «Полномочия президентов Азербайджанской Республики и США в сфере законодательной власти» // Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. EMM. 17-ci buraxılış. Bakı-2007, s. 106-111
7. «Полномочия Президентов Азербайджанской Республики и США в сфере обеспечения национальной безопасности, обороны и внешней политики» // İpək Yolu. Azərbaycan Universitetinin məqalələr toplusu. №1, 2008, s. 21-28
8. «К вопросу о полномочиях Президентов Азербайджанской Республики и США в сфере обеспечения национальной безопасности» // Москва. Юридические науки. №3 (37), 2009, с. 27-30

**Вугар Давид оглы Багирли**

**«Институт президентства в Азербайджанской Республике и США (сравнительно-правовое исследование)**

## РЕЗЮМЕ

Как и во многих других странах демократические изменения, происходящие в Азербайджане в конце 80-х и в начале 90-х годов XX века, охватывали новые организационные задачи, основанные не только на общественных, но и на демократических идеях системы государственных органов. Одной из ваджных изменений, сделанных в государственной структуре, было учреждение в 1990 году института президентства.

**Во введении** обосновывается актуальность темы, раскрывается степень ее разработанности, определяются цели и задачи диссертационного исследования, его методологическая основа, научная новизна и практическая значимость.

**В первой главе** - «Понятие института президентства и его становление (эволюция) в Азербайджанской Республике и США» - раскрывается данное понятие, рассматривается его историческая эволюция, теоретико-правовые аспекты института президентства и его юридическая природа, а также становление института президентства в Азербайджанской Республике и США.

**Во второй главе** работы - «Правовое регулирование выборов президентов Азербайджанской Республики и США и досрочное прекращение их полномочий» - проводится сравнительный анализ порядка выборов и вступления в должность президентов в Азербайджанской Республике и США, а также досрочного прекращения их полномочий.

**В третьей главе** - «Полномочия Президентов Азербайджанской Республики и США» - исследуются полномочия Президентов Азербайджанской Республики и США в сфере законодательной, исполнительной, судебной властях, а также в сфере обеспечения национальной безопасности, обороны и внешней политики.

В **заключении** работы формулируется ряд основных научных выводов и практически значимых предложений. По диссертационной работе опубликованы восемь статей.

**Vugar D. Bagirli**

**"The Presidential Institutions in the Azerbaijan Republic and USA (comparative-juridical analysis)"**

## SUMMARY

The Democratic transformation in Azerbaijan in the late eighties and nineties of the last century radically touched not only social, but also state institutions essentially reorganized the body system of the state. The most important transformation has become the establishment of the presidential institution in 1990 in the State administration. Consequently at the contemporary step of development of our society on the condition of legal and democratic state there is necessity and importance of further development in direction of circumstantial regulation all round presidential institution.

The dissertation covers up comparative-juridical analysis of the Presidential Institutions in the Azerbaijan Republic and USA.

The dissertation consists of introduction, three chapters, conclusion and bibliography.

**Chapter I** – "The notion of a presidential institution and its evolution in the Azerbaijan Republic and USA" – divulges the above mentioned notion, regards the theoretical-legal aspects of the presidential institution, its juridical origin and foundation in the Azerbaijan Republic and USA.

**Chapter II** – titled "The legal regulation of presidential elections in the Azerbaijan Republic and USA and their ahead of time authority cessation" – carries out comparative analysis of the election order, presidential inauguration in the Azerbaijan Republic and USA, also their ahead of time authority cessation.

**Chapter III** – titled "The authorities of the Azerbaijan Republic and USA Presidents" – regards with presidential authorities in the legislative, executive, court power system aspects as well as, national security, defense and foreign policy.

Proposals to amend legislation have been formulated in the conclusion of the dissertation. Eight articles from dissertation have been published.